Müşahidə Şurasının 118 nömrəli

17.12.2024-cü il tarixli qərarı ilə

təsdiq edilmişdir

**“ZİRAAT BANK AZƏRBAYCAN ASC”-nin**

# KREDİTLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏ ƏTRAF MÜHİTİ, SOSİAL VƏ İDARƏETMƏ AMİLLƏRİ TƏSİRİNİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ

**Bakı 2024**

## 1. Ümumi Müddəalar

1.1. “Ziraat Bank Azərbaycan” ASC olaraq davamlı inkişaf perspektivi çərçivəsində inklüziv iqtisadi artımla yanaşı ekoloji və sosial davamlılığın təmin edilməsinin və idarəetmə amillərinin nəzərə alınmasının vacib olduğunun fərqindəyik və maliyyə qurumu olaraq bu istiqamətdə verə biləcəyimiz töhfələrdən xəbərdarıq.

1.2. Davamlılığın hamı tərəfindən qəbul edilmiş prinsiplərini biznes modelimizə inteqrasiya etmək məqsədi ilə davamlı layihələr inkişaf etdirmək əzmindəyik. Bu çərçivədə, ətraf mühit, sosial və idarəetmə amillərinə nəzarət edərək fəaliyyətimizi davam etdiririk. Təbiət və cəmiyyət qarşısında öhdəliklərimizi dərk edərək, maliyyə və texniki kredit risklərimizi idarə etdiyimiz anlayış ilə, dolayı təsirlər kimi təyin etdiyimiz kredit fəaliyyətləri nəticəsində yaranan ekoloji, sosial və idarəetmə amillərinin təsirlərini qiymətləndiririk.

1.3. Ətraf mühit və sosial təsirin idarə edilməsi, davamlılıq təcrübələrinə uyğun olaraq İdarə Heyətinin rəhbərliyi altında həyata keçirilir və Baş Risk inzibatçısı müvafiq işlərin görülməsinə nəzarət üzrə məsul şəxsdir.

1.4. Bu siyasət Bankın Davamlılıq Siyasətini tamamlayır. “Ziraat Bank Azərbaycan ASC” olaraq, kreditləşdirmə fəaliyyətləri çərçivəsində Ətraf Mühit, Sosial Təsir və İdarəetmə prinsiplərini müəyyən edən bu siyasətlə;

- Kredit verdiyimiz layihələrin ekoloji, sosial və korporativ idarəetmə töhfələrini maksimum dərəcədə artırmağa əhəmiyyət veririk,
- Bu siyasətin əlavəsi olaraq “Maliyyələşdirilməyən fəaliyyətlər siyahısı”-na daxil edilmiş, milli qanunvericilik və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə qadağan edilmiş/məhdudlaşdırılan fəaliyyətləri məbləğindən aslı olmayaraq, heç bir maliyyə, texniki, ətraf mühit və sosial təsirlər və korporativ idarəetmə qiymətləndirilməsi tələbi qoymadan maliyyələşdirmirik.

1.5. “Maliyyələşdirilməyən Fəaliyyətlər Siyahısı”na daxil olmayan və müəyyən məbləğdən yuxarı yeni/artırma investisiya layihələrini və kredit tələb edən müştəri, (T.C. Ziraat Bankası A.Ş. daxilində istifadə olunan) Ekoloji və Sosial Risklərin Qiymətləndirilməsi Modelinə tabe tutulur:

- Qiymətləndirməyə görə; müştərinin ətraf mühit, sosial və idarəetmə risklərini aşağı-orta-yüksək olaraq üç səviyyədə təsnif edilir. Bu kateqoriyaya görə kredit layihələri risklərini müəyyən edir, onu azaltmaq üçün fəaliyyət planı yaradır və investisiya dövrü ərzində onun fəaliyyətinə nəzarət edilir,
- Kredit verdiyimiz investisiya layihələrində baş verə biləcək iş sağlamlığı və təhlükəsizliyi risklərinin qarşısını almaq və/və ya azaltmaq üçün müştərilərimizə dəstək veririk,
- Maliyyələşdirdiyimiz firmaların korporativ idarəetmə standartlarını dəyərləndirir, idarəetmədə ədalətlilik, işçi münasibətlərində şəffaflıq və etikaya prioritet tanıyırıq,
- Məhsul və xidmətlərimizi davamlı inkişaf perspektivində təkminləşdirməyi hədəfləyirik.

Bu istiqamətdə;

- Təbii ehtiyatların davamlı idarə olunmasını,
- Biomüxtəlifliyin qorunmasını,
- İqlim dəyişikliyi ilə mübarizə,
- Sosial inkişafı

dəstəkləyirik. Eyni perspektivdən dayanıqlı kənd təsərrüfatı, bərpa olunan enerji, resurs səmərəliliyi, ətraf mühitin mühafizəsi texnologiyaları, meşəçilik kimi davamlılıq mövzulu məhsullar hazırlayır və müştərilərimizi bu sahələrə investisiya qoymağa təşviq edirik.

- Kreditləşmə fəaliyyətlərində Ətraf və Sosial Mühitə Təsirin İdarəedilməsinin effektivliyini artırmaq üçün bu sahədə hüquqi tənzimləmələr və beynəlxalq qabaqcıl təcrübələri özündə əks etdirən bacarıqların artırılması və təlim fəaliyyətlərinə əhəmiyyət verir və bu sahədə səriştəli və ixtisaslı kadrlarla işləyərək bilik səviyyəsinin sürətlə yayması hədəflənmişdir,

1.6. Siyasətin monitorinqi, yenilənməsi üçün təkliflərlə çıxış edilməsinə görə məsuliyyət Riskləri İdarəetmə Komitəsinə və icrasına görə məsuliyyət İdarə Heyətinə, onun təsdiqi və ləğvinə görə isə məsuliyyət Müşahidə Şurasının üzərinə düşür.

## 2. Maliyyələşdirilməyən Fəaliyyətlərin Siyahısı

2.1. “Ziraat Bank Azərbaycan” ASC-nin korporativ məlumatı daxilində aşağıdakı layihələr/faliyyətlər maliyyələşdirilmir:

- Kütləvi qırğın silahlarının və minaların istehsalı üzrə fəaliyyətlər,
- Məcburi əmək/uşaq əməyinin zərərli və istismar formalarını və insan hüquqlarına zidd davranışları etiva edən fəaliyyətlər,
- RAMSAR (Beynəlxalq əhəmiyyətli olan sulu-bataqlıq yerlər) ərazi olaraq təyin edilmiş ərazilərdə həyata keçirilən fəaliyyətlər,
- CİTES (Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti) çərçivəsində məhsul və fəaliyyətlərlə məşğul olan şəxslər və təşkilatlar;
- PCB (Poliklorlu bifenillər) tərkibində yüksək zərərli kimyəvi maddələr qrupu olan məhsulların istehsalı və ya ticarəti;
- 2.5 km-dən uzun olan torlarla drift balıqçılıq fəaliyyətləri;
- Ozon təbəqəsini məhv edən məhsulların istehsalı və ticarəti fəaliyyəti;
- Beynəlxalq səviyyədə qadağan olunmuş dərmanların, pestisidlərin/herbisidlərin və digər zərərli maddələrin istehsalı və ticarəti;
- Bağlanmamış asbest istehsalı və ya ticarəti fəaliyyəti.

Bu Siyasət Müşahidə Şurası tərəfindən təsdiq edildiyi tarixdən qüvvəyə minir.